# BİLƏCƏRİDƏN O YANA

## Türk dünyası

### TÜRKİYƏ

Gənclərə dünyada ən zor iş olan mutluluq diləyirəm.

**Nazım HİKMƏT**
*(Nazım Hikmətin Anarla Zemfiranın toyuna göndərdiyi foto teleqram)*

Anarın son iri əsəri "Ağ qoç, qara qoç" da bənzərsizdir. Folklor obrazından yararlanaraq (Ağ qoçun belinə minsən işıqlı dünyaya çıxacaqsan, qara qoçun belinə minsən qaranlıq dünyaya düşəcəksən) müəllif əsərinin iki hissəsində vətəni Azərbaycanın gələcəyini iki model şəklində qələmə alır. Birinci hissədə xoşbəxt, firavan, bütün milli, sosial, mənəvi problemləri həll olunmuş bir ölkə... İkinci hissədə dəhşətli bir ehtimal - elə həmin ölkə işğal edilmiş, üç zonaya bölünmüşdür - birində hətta ailə həyatına belə müdaxilə edən müdhiş dini fanatizm hökm sürür, ikincisində şəxsiyyəti əzən kommunist sisteminin ən pis şəkli - riyakarlıq və ehkamçılıq rejimi, üçüncüsündə vəhşi kapitalizm, ancaq və ancaq varlanmaq ehtirası və bütün mənəvi, mədəni dəyərlərin tapdanması.

Arzu edirəm ki, Anarın vətəni Azərbaycan, yazıçının öz xəyallarında gördüyü ideala yaxınlaşsın, onun xəbərdarlıq etdiyi bütün təhlükələr isə heç vaxt gerçəkləşməsin.



*Çingiz Aytmatovla*

Əgər ədəbiyyatı keçmiş sovet dövrü miqyasında, ya azı MDB miqyasında götürsək Anar ən görkəmli müasir yazıçılardandır. O, yalnız öz zamanının ifadəçisi deyil, dərindən düşünən ədib-filosofdur. Bununla da o Azərbaycan ədəbiyyatının, Azərbaycan dilinin imkanlarını, potensial ehtiyatlarını nümayiş etdirir. Bu mənada o müasir ədəbiyyatın çox əyani, aparıcı fiqurudur.

Bundan çıxış edərək, mən belə düşünürəm ki, Anar, doğrudan da bu anlamda çox mühüm və aktual bir fiqurdur. Ona görə də ondan xeyli yaşlı ağsaqqal kimi mən Anarı bütün qəlbimlə təbrik edirəm. Yaş fərqimizə baxmayaraq, mən onu yaşıdım kimi qavrayıram, çünki bir-birimizi bircə kəlmədən anlayırıq.

**Çingiz AYTMATOV**



*Oljas Süleymenovla*

Rəsul Rza çox hörmət bəslədiyim insan, mənim ustadlarımdan biridir. Ədəbiyyatda da, Azərbaycan ruhunu anlamaq baxımından da o mənə çox şey verib. Çox şadam ki, bütün bu keyfiyyətlər onun oğlu Anara da keçib. Anarla tez-tez bizim ədəbi bayramlarda görüşürdük. Düşünürəm ki, ilk dəfə Bakıda, 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günləri keçirilərkən tanış olduq. O vaxt çoxlarıyla dostlaşdım, amma onların arasında mənə ən yaxını Anar idi. Sonralar da dünyanı dərk etmək, xalqlarımızı anlamaq, onların planetdə yerini bilmək baxımından bizim dünyagörüşlərimizin çox oxşar olduğunu gördük. Onunla söhbət etmək çox maraqlıdır. Mən bilirdim ki, ona nəyisə izah etmək lazım deyil və o da bilirdi ki, mənə nəyisə izah etmək lazım deyil. Tutalım, Azərbaycanda çətinliklər olanda mən onu bir kəlmədən, bir işarədən başa düşürdüm. Birlikdə Ali Sovetdə və SSRİ Yazıçılar İttifaqında işləmişik. Mən çox şadam ki, tale bizi görüşdürdü, ümid edirəm ki, bu qarşılıqlı zənginləşmədir, hər halda mən Anarla, onun ədəbiyyatıyla, Dədə Qorqudla bağlı araşdırmalarıyla tanış olduqdan sonra zənginləşdim. O, bu sahədə böyük mütəxəssisdir.

**Oljas SÜLEYMENOV**

Dədə Qorqudla bağlı bu günə qədər səngiməyən mübahisələrdə mənə ən yaxın Anarın mövqeyidir. O, alimlərin ağızlarında saqqız kimi çeynədikləri məsələyə yeni baxışla yanaşdı və Oljas Süleymenovun "Az i Ya" əsərinə bərabər olan "Dədə Qorqud dünyası" essesini yaratdı.

**Timur PULATOV**
***Özbəkistanın Xalq yazıçısı***

Anarın burada bir pyesi oynanılmış. Bizi saat səkkizdə teatra dəvət elədi. Tamaşaya baxmağa üçümüz getdik. Vera, Adil Yəhyayev və mən. Tamaşanın adı: "Şəhərin yay günləri". İki pərdəli bir əsərdir.

Vera birdən əyilib qulağıma dedi:

Mən də sənin kimi birinci dəfədi ki, Azərbaycan teatrına baxıram. Düzü, bu qədər gözəl oynayacaqlarını gözləmirdim.

**A.QƏDİR**

Dostluq münasibətləriylə bağlı olduğum Anarın və Elçin Əfəndiyevin yaradıcılıqlarına hörmət bəsləyirəm. Anar çox istedadlı yazıçıdır, onunla ünsiyyətdə olmaq çox xoşdur.

**Orxan PAMUK**



*Orxan Pamukla*

Dünyanın qəribə işləri var. Birisinin kitabları çıxıb, hətta Nobel də qazanıb, amma bəhs olunan şəxsin kitablarını aldım, oxumağa başladım, iki-üç səhifə oxuyub ardını oxuya bilmədim. Amma Anarın əsərləri insanı elə cəlb edir ki, başladınmı, bitirmədən yerə qoya bilmirsən. Anar sadəcə Azərbaycanın deyil, bütün türk dünyasının böyük yazarıdır. Sanırdım ki, 60-a yaxın kitabı çıxıb, 90-dan çox imiş. Əsərləri dünyanın 30 dilinə çevrilib. Anar bunların heç birini yazmayıb tək bir kitabı ortaya qoymuş olsaydı yenə də türkçülük tarixinə böyük hizmətlər yapmış olardı. Bu kitab onun tərtib etdiyi "1500 ilin oğuz şeri" kitabıdır. Bu mənim başucu kitabımdır, hər zaman masamın üstündə olan kitabdır, onu dönə-dönə oxuyaraq şeir dünyamıza dalıram.

Anar Dante kimi ömrünün yarısına yetmişdir. O, Dantenin yubileyinə "dəvət" alan adamlardan deyil. Amma, deyim ki, bu əsərin qəhrəmanı da xoş bir adamdır və bu Anarın ən çox sevdiyim və təsirləndiyim əsərlərindəndir.

**Namiq Kamal ZEYBƏK**
***Sabiq Kültür bakanı***

Önəmli və dəyərli Azərbaycan aydını Anar mənə bir kitab vermişdi: "Min beş yüz ilin oğuz şeri". Diqqət edin, yalnız türk və azəri şairlərinin deyil, yer üzündəki bütün türk şairlərinin antolojisi. Bizdə böylə bir əsər yox. Ürəyimdə bir həyəcan duydum, düşündüklərimi açıqca söylədim: "Siz bizdən artıq türksünüz!"

**Atilla İLHAN**

Anar Azərbaycanın içində və xaricində tanınan məşhur yazıçıdır. Kitabları bir çox xarici ölkələrdə nəşr



*Oktay Akballa*

edilib. Çox sevilən bir insandır. Bu sevgi atasından qalmış, amma özü də şəxsiyyəti, əsərləri ilə azəri xalqının qəlbində yer tutmuşdur. Küçə ilə gedirik, hər kəs onu tanıyır, hörmətlə salamlayır. Anar eyni zamanda Sovetlər birliyi parlamentosunda Azərbaycanın təmsilçisidir. Üç ildir Azərbaycan Yazarlar Birliyinin birinci katibi, yəni sədridir. Türkcə ən düzgün danışanlardandır. Yazdıqları latın əlifbası ilə nəşr olunarsa, şübhə yox ki, ölkəmizin ən çox oxunan, sevilən yazarlarından biri olacaqdır.

**Oktay AKBAL**

Tanınmış şair Rəsul Rzanın və şairə bir ananın oğlu olan Anar 1934-cü (səhvdir, düzü - 1938) ildə Bakıda doğulmuşdur. "Dantenin yubileyi", "Ağ liman", "Molla Nəsrəddin - 66" adlı əsərləri ilə tanınmışdır. Özəlliklə sonuncusu çox sevilmiş. Bildiyiniz Nəsrəddin Xocanın azərbaycanlısı olan Molla Nəsrəddin 1966- cı ildə yaşasaydı, nələri dilinə gətirərdi, nələrə gülərdi? Müəllif bunları izləyir. Nə yazıq ki, nəşr olunmuş səkkiz kitabı olan yazarı yetəri qədər tanımırıq.

**Fakir BAYKURT**

21 iyunda televiziyada "Dədə Qorqud"u Azərbaycanda yaradılmış film kimi seyr etdik. Hər şeydən öncə bu filmi yaradan azəri qardaşlarımıza təşəkkürümüz var. Nədən? Ən azı bizim görəcəyimiz işi gördükləri üçün və bizə "Dədə Qorqud" kimi bir dastanımızın var olduğunu xatırlatmaları üçün. Oğuzların vətən sevgisi, torpaq sevgisi yaxşı göstərildiyi kimi, saf və təmiz dindarlıqları da dilə gətirilə bilərdi. Ancaq azəri soydaşlarımız haqlı olaraq deyə bilər ki: "Dini və millətləri rədd edən yabancı bir rejimdə biz bunu edə bildiksə, yenə də böyük hünər və uğur sayılmalıdır. Daha gözəlini, daha yaxşısını biz əlbəttə sizdən gözləyirik. Sizin rejissorlarınız, aktyorlarınız, bəstəkarlarınız hardadır? "Dədə Qorqud"un 12 boyunu bir araya gətirib dünyanın ən gözəl dastanlarından birini ondan çıxaracaq şairlərimiz, ədiblərimiz hardadır?

**Əhməd KABAKLI**

Neçə il qabaq İstanbul sinemalarında bir film göstərilmiş, böyük marağa səbəb olmuşdur: "Spartak" filmi. Televizyonda Azərbaycanda çəkilmiş "Dədə Qorqud"a baxdığımda eyni səhnə daha böyük əxlaqi dəyərlər, hüdudsuz bir fədakarlıq gördüm. Azərbaycanda çəkilmiş filmi seyr edərkən bunu düşündüm: "Mən ki Dədə Qorqudu neçə dəfə oxuyub, ondan neçə dəfə bəhs etmişəm, mən belə min il öncə yazılmış bu kitabda oxuduğum səhnələri "Spartak" qədər dəyərləndirə bilməmişəm". Deməmişəm ki, "Bunu mənim Dədəm Qorqudumdan almışlar". Bəli, "Dədə Qorqud" filmi göstərdi ki, bizim nağıl dediyimiz, və ya elə deməyə məcbur edildiyimiz "Dədə Qorqud"da 16 dövlət qurmuş bir millətin mənəvi zənginliklərinin hamısı var. Elə əxlaqi bir mühtəva var ki, insanlığın hamısına yetər və artıq da qalar. Bir gün görərik ki, Azərbaycanla Türkiyənin babası eyniymiş: Dədəm Qorqudumuz...

**Ergün GÖZƏ**

Türk ədəbiyyatının şah əsərlərindən biri olan "Dədə Qorqud"un Azərbaycanda filmə alınmış bir neçə hekayəsi ekrana gəlirdi. Bu, müdhiş bir şeydi! Filmi, "bu nöqsanı vardı, burası yanlışdır" deyə tənqid edə bilərik. Fəqət, ən önəmlisi bu əsərin ekrana gələ bilməsi, Azərbaycanda, bizim imkanlarımıza sahib olmayan qardaşlarımızın bizə öz nöqsanımızı, öz qəflətimizi xatırlatmalarıdır.

**Sevinc ÇOKUM**

Türk kültür tarixinin ən böyük və dəyərli əsəri olan "Dədəm Qorqud"un filmə alınıb televiziyada göstərilməsi böyük bir sənət və kültür hadisəsi idi. Bu əsərin Azərbaycanda yaradılmasının maddi tərəfdən önəmli olacağı kimi, mənəvi yöndən də ayrıca bir əhəmiyyəti vardır. Azərbaycan dəmir pərdə arxasındakı bir türk yurdu olmasına baxmayaraq, orada milli kültürə bizdən daha artıq və ciddi ölçülərdə xidmət edildiyi gözdən qaçmamalıdır. Bu əsərin filmə alınması, ekrana gətirilməsi, azərbaycanlı qardaşlarımız üçün İstiqlal dərəcəsində mənəvi həzz verəcək bir hadisədir.

**Niyazi Yıldırım GƏNCOSMANOĞLU**

Anarın təvazökarlığı inanılmaz dərəcədədir. Hay-küysüz, təmkinli bir vətənpərvərdir. Millətsevərdir. Rus dilini və ədəbiyyatını Azərbayan aydınlarının hamısı kimi o da yaxşı bilir. Rus ədəbiyyatına ögey ya düşmənçilik bəsləmir. Xalqının tarixini və yaşadığı sıxıntıları yaxşı bilir. Bir-birimizi tanıdıqca bunları mənə də anladırdı. Cəmiyyəti yaxşı təmsil edən bir yazardı. Çingiz Aytmatovla dostluq söhbətlərinə qısa vaxtda olsa da şahid oldum.



*İlbər Ortaylıyla*

Bir müddət əvvəl İstanbul türkcəsinə çevrilərək çap olunan "Yaşamaq haqqı" son əsəridir. Əsərdə şəxsi xatirələrinə, sənədlərə, Azərbaycanın seçilmiş zümrəsi arasına duyduqlarına, gördüklərinə və ciddi yazılı qeydlərinə əsaslanır. Bu xronoloji tarixi seçərək bir araya gətirən son yazıları Türkiyədə Azərbaycan həsrətini mütləq oxumaq lazımdır. Anar bu həsrəti doğru dəyərləndirir. Nə Turançılığa bağlayır, nə də başqa bir təlimə. Təbii bağlar mədəniyyətdir, mədəni olduqları üçün də yaşayırlar. Anar kimi soyuqqanlı, danışmaqdan çox dinləyən və oxuyan bir yazarın varlığı həm Türkiyə həm Azərbaycan üçün şansdır. Onun yaşaması, çalışması və yazdıqlarının çap olunması, Türkiyə türkcəsinə çevrilməsi vacibdir. Ədəbiyyatımızın geniş bir coğrafiyada, birlikdə inkişaf edərək dünyadakı yerini alacağına heç şübhə yoxdur. Anar bunun örnəyi və təmsilçisi olan yazarlardandır.

**İlbər ORTAYLI**

# BİLƏCƏRİDƏN O YANA

## Türk dünyası

1960-cı illərdə ədəbiyyat dünyasına daxil olan Anar çağdaş Azərbaycan ədəbiyyatının, özəlliklə müasir hekayənin ən böyük ustasıdır. Anar dünya klassiklərində gördüyümüz kimi mükəmməl texnikaya və detallara xüsusi yer verən bir üsluba sahibdir.



*Fikrət Türkmən və Ayşə Atayla*

Hal-hazırda Anar Azərbaycan və türk dünyası üçün özəldir. Onsuz türk dünyasının intellektual sistemində əskiklik olar. Türk dünyasında ona böyük bir inam vardır və gələcəkdə də türk dünyası ziyalılığının zirvəsində mütləq Anar olacaqdır.

**Fikrət TÜRKMƏN**

"Otel otağı" romanının qəhrəmanı Kərim elə bir nəslin, daha doğrusu elə bir sosial tipin rəmzidir ki, nə sovet dövründə, nə bağımsızlıq dövründə praktik insan ola bilmir. O, konformist olmağı, qəbul olunmuş davranış qaydalarıyla uyuşmağı, hər hansı cəmiyyətin ruhuna riayət etməyi bacarmır. O, sovet dönəmində türkçülüyü damğalayan, indi isə aşırı türkçü olmuşların riyakarlığını qəbul edə bilmir. Nə yazıq ki, biz Türkiyədə Azərbaycan aydınlarını heç zaman dəyişməyən əqidələrinə görə yox, indi söylədikləri yalançı və boş laflarına görə dəyərləndiririk. Bunun səbəbi odur ki, bir-birimizi, adamlarımızı yaxşı tanımırıq. "Otel otağı"nın əsas fikirlərindən biri budur.

**Erdal DOĞAN**

Anar bu gün dünya çapında tanınan ən məşhur Azərbaycan yazıçısıdır. May günlərində Anar Türkiyəyə gəlmişdi, Nazim Hikmətin dostu, yeni Azərbaycan şeirinin yaradıcılarından biri, atası Rəsul Rzanın arxivindən Nazim Hikmət fonduna, böyük şairimizlə bağlı xeyli sənəd hədiyyə etdi.

**İrfan ÇİFTÇİ**

Anarın ən məşhur "Beş qatlı evin altıncı qatı" romanından danışmazdan əvvəl demək gərəkdir ki, bölgənin başqa xalqlarıyla müqayisədə azərbaycanlılar ən çox mütaliə edən xalqdır və bu da yazılara daha böyük sorumluluq yükləyir. Azərbaycanda yazarlara yalnız hörmət bəsləmirlər, həm də onları daima müşahidə edirlər, onlardan həyatın bütün sorunlarına cavab gözləyirlər. anarın əsərlərinin obrazları məhz elə toplumun bu suallarına cavab verir. İnsanlar arasında əlaqə, ünsiyyət, onu ən çox maraqlandıran problemlərdəndir. İlk povesti "Ağ liman"dan başlayan bu təmayül, "Beş qatlı evin altıncı qatı" romanında davam və inkişaf etdirilir. İlk zamanlar cəmiyyətin müəyyən qisim tərəfindən qəbul olunmayan, "Yuxarıların" təzyiqinə məruz qalan Anar yolundan dönmədi və indi onun açdığı yollarla daha gənc nəslin yazarları addımlayır.

**İldəgiz QURTULAN**

Anar, Elçin və Yusif Səmədoğlu, əgər belə demək olarsa, sovet döneminin burjuaziyasına mənsubdur. Yeni əsl şəhərlidirlər. Kənd həyatını bilməyən bu yazıçılar əsərlərində əsasən şəhər sakinlərinin həyatına müraciət edirlər. Oxuculara mənim tərcüməmdə təqdim etdiyimiz "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanı mənəvi və sosial məsələlərə həsr olunmuş əsərdir. Maraqlı bir üslubda qələmə alınmış bu romanın Azərbaycan ədəbiyyatında özəl yeri var.

**Yusif GƏDİKLİ**

Anar çağdaş Azərbaycanın irəli gedən yazıçılarındandır. "Ötükən" yayın evi bir neçə il öncə onun "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanını basmışdı. İndi də "Dədə Qorqud" kitabını basır. Anarın "Dədə Qorqud"unu meydana çıxarmaqla, "Ötükən" yayın evi mədəniyyətimizə böyük xidmət göstərmiş olur.

**Osman Fikri SƏRTQAYA**

Mənim qeydlərim Anarın "Ağ qoç, qara qoç" kitabıyla bağlıdır. Bu kitab Soljenitsinin "Qulaq takım adaları" ("Arxpelaq Qulaq") Artur Köstnerin "Zülmət və ədəbiyyat", Çingiz Dağçının "Qanlı illər", Dostoyevskinin "Ölülər evindən yazılar" kitablarıyla bir sıradadır. Bütün bu kitablar dəhşətli sənədli şəhadətdir.

**Firat QIZILTUĞ**

"Otel otağı" kitabında Anar ustalıqla bizi Azərbaycan cəmiyyəti ilə tanış edir. Anar üslubunun bütövlüyü məharətlə qurulmuş dialoqlarda da görünür. Qəhrəmanlarının fərdiyyətini açarkən o,daxili monoloqlardan da istifadə edir. "Otel otağı"nın dərin mənası var. O, bizi Azərbaycanın çətin dönəm məqamında bizi öz ölkəsiylə tanış edir.

Bu həm Azərbaycan, həm də Türkiyə cəmiyyətlərini yaxşı tanıyan müəllifin əsəridir. Bu əsəri oxuyanda birdaha əmin olursan ki, dərin fikir yalnız uğurlu bədii həll üçün yox, ümumən həyatı dərk etmək üçün də vacibdir. Anar çağdaş cəmiyyətin həyatı haqqında roman yazıb. Bu roman Qoqolun ironiyası, Çexovun qüssəsi, Tomas Mannın intellektual düşüncələriylə səsləşir. Mən Azərbaycanın milli şairi Rəsul Rzanın oğlu Anara - aramıza xoş gəldin - deyirəm.

**Firudin ANDAÇ**

Bakıda bir payız axşamı, Xəzərdən əsən külək saçımızı qarışdırarkən çağdaş Azərbaycanın ən məşhur, ən çox sevilən yazarı Anar mənə Boris Posternakdan etdiyi tərcümələri oxudu. Mən başqa dilə çevrilərkən heç bir gözəlliyini və özəlliyini qeyb etməyən şeirin tərcüməsindən sarsılmamışdım. Bir neçə il sonra Ankarada Anara həsr olunmuş bir toplantıda çıxış edərkən mən dedim ki, yazarın öz xalqına, onun ədəbiyyatına ən böyük xidməti ondadır ki, doğma dilin imkanlarını aça bilsin. Posternak kimi mürəkkəb üslublu şairi Azəri türkcəsində "danışdıra" bilən adam öz xalqına əvəzsiz töhvə vermiş olur.

**Ataol BƏHRAMOĞLU**



*İldəgiz Qurtulan və Əziz Nesinlə kitab təqdimatında*



*Ataol Bəhramoğluyla İstanbulda Ataolun heykəli önündə*

Anar nəhayət dostlarının israrlı təşəbbüslərindən sonra öz veb-saytını açdı. Romançı kimi də, şair kimi də öz əsrinin övladı olmaq hər sənətkara nəsib olmur. Anar bu mənada unikaldır. Keçmişdə Sovet Birliyinin bir parçası olan Azərbaycanda o bəzən ironik şəkildə, bəzən Kafka üslubunda bu cəmiyyətdə insanların yabancılaşmasını, tənhalığını təsvir edirdi. O illərdə yazılmış və Türkiyədə "Bir fürsət bulsam" adıyla nəşr olunmuş "Macal" romanında o insanı robota çevirən sovet həyat tərzini amansızcasına tənqid edirdi. Saytında son zamanlar yazdığı "Vahimə" hekayəsi də yerləşdirilib. Mən bu hekayəni Anar yaradıcılığının zirvəsi hesab edirəm.

Türkiyədə "Sırv səlvilərin bir otel odası" adıyla nəşr olunmuş "Otel otağı" romanı mənə çox böyük təsir etdi. Bədii əsər kimi də, ictimai həyatın faktı kimi də. "Otel otağı" L.Tolstoyun "İvan İliçin ölümü" əsəriylə müqayisə oluna biləcək bir ustalıqla yazılıb. Amma məsələ yalnız əsərin bədii məziyyətlərindən deyil. O, Türkiyənin Azərbaycanla və başqa türk respublikalarıyla münasibətlərinin ən acı gerçəklərini işıqlandırmaq baxımından da önəmlidir.

Azərbaycanın ən sevilən yazarı Türkiyədə ən çox oxunan Azəri romançı, türk dünyasına qayğısı və sevgisiylə tanınan Anarın son romanı "Ağ qoç, Qara qoç"a gəlirsək, bu əsər siyasi romanın bütün özəlliklərini daşıyır. Anar bu romanıyla yalnız Azərbaycanın deyil, bütün türk dünyasının gələcəyinə işıq tutur, bizləri xəbərdar edir. Bu mənada "Ağ qoç, qara qoç" diqqətlə düşünərək oxunulmağı gərəkən bir çağdaş türk nağılıdır və millətin gələcəyinə uğurlu bir bələdçidir.

**İrfan ÜLKÜ**

Çağdaş Azərbaycan ədəbiyyatının ən önəmli təmsilçilərindən, dünya səviyyəsində şöhrətə sahib olan Anar sənətini siyasətə alət etmədən yaşadığı dönəmə, Azərbaycan türkülüyünü 1960-dan sonrakı sosial həyatına ayna tutmuş usta bir yazıçıdır. Hekayə, roman, senaryo yazarı olaraq ölkəsində qalıcı bir cığır açmış, eyni zamanda bir çox dilə çevrilən əsərləriylə dünyada ölkəsinin sənət elçisi olmuşdur.

**Fatma ÖZKAN**
***Professor, doktor***

"Ağ liman"ın Nemət günümüzün ortaq qəhrəmanlarından biri, Nemət nəşriyyatında tərcüməçi kimi çalışmaqdadır. Nəşriyyatdakı mühit pozulmuş bir cəmiyyətin göstəricisidir. Anar yaşadığı cəmiyyətə, mühitə özəl bir ittiham verməkdən daha çox müxtəlif cəmiyyətlərin hər cür sistemdə insanı azad davranışdan məhrum edən faciələri görməkdədir.

**Adnan ÖZYALÇİNƏR**

Anar Rəsuloğlu Quzey Azərbaycanın gənc yazarlarındandır. Cəlbedici bir üsluba, dərin, qüvvətli anlatmaq qabiliyyətinə sahib olan Anar Rəsuloğlu əsərlərində milli fikri izləməkdə və bilxassə Stalin devrini acı bir dillə ifadə etməkdədir. Bu baxımdan "Ağ liman" da maraq doğura biləcək bir əsərdir. "O gecənin səhəri" hekayəsində də eyni ruhu və üslubu bulacaqsınız.

**Əhməd Bican ERCİLASUN**

Anar çox yönlü bir yazar olaraq diqqəti çəkir. Geniş bilikləri və dərin mədəniyyəti onun insan problemi üzərində işləməsini təmin etmişdir. Anar mövzularını və qəhrəmanlarını çağdaş Azərbaycan həyatından alınmasına baxmayaraq, bu hüdudlar içərisində qalmamış, millidən bəşəri olana qədər yüksələ bilmiş, həm çağdaş Azərbaycan insanını, həm də zəmanəmizi anlatmağı, canlandırmağı çoxtərəfli bir şəkildə ifadə etməyi bacarmışdır.

**Əli Yavuz AKPINAR**


*Əli Yavuz Akpınarla*

Anar modern Azərbaycan ədəbiyyatı içində önəmli mövqeyə sahibdir. Oxumağa həvəsli olan Azərbaycan toplumunda Anarın hər əsəri öz-özünə bir ədəbi hissəsidir. Üslubu və təhkiyəsi çox cəlbedici və maraqlıdır. Anar axıcı üslubu, canlı xarakterləri və sağlam roman qurğusu ilə Modern Türk ədəbiyyatının güclü və işlək qələmlərindən biridir. Onun əsərlərində lirizm və dərinlik görünür. Modern Türk ədəbiyyatı Çingiz Aytmatov, Çingiz Dağçı, Anar və daha neçə romançının yazdıqları və yazacaqları əsrlərlə daha da zənginləşəcəkdir.

**Bilgə ERCİLASUN**
***Professor, doktor***


*Əhməd Bican və Bilgə Ercilasunla*

Anar - Azərbaycanın xalq yazıçısı
Anar - dünya yazıçısı

Anar Azərbaycan dilində yazan özbək yazarı, yeni özbək oxucularının sevib oxuduğu yazarlardan biridir. Onun bir çox əsərləri özbək dilinə tərcümə olunub. Onun "Dantenin yubileyi", "Beş mərtəbəli evin altıncı mərtəbəsi" kimi povest və romanları, onlarla hekayəsi özbək dilində dəfələrlə çap olunub. Özbəkistan televiziyası "Dantenin yubileyi" əsasında hazırlanmış videofilim nümayiş etdirib. "Mən, sən, o və telefon" və "Keçən ilin son gecəsi" hekayələri radio pyeslər şəklində səslənib. Mən bu böyük yazıçı ilə 1979-cu ildə tanış olmuşam. Ondan əvvəl onun əksər əsərlərini oxumuşdum. O vaxt qırx bir yaşı olan Anar təkcə Azərbaycanda deyil, bütün İttifaqda, bir çox xarici ölkələrdə tanınan, milyonlarla oxucusu olan bir yazıçı idi.

Anarın əsərlərini oxuyan hər bir kəs bilir ki, güclü satira, yumor, sərt ironiya var. Amma yazıçının özü çox ciddidir.

80-ci illərin sonları idi. Birlik üzvlərinin toplantısına getdik. "Moskva" mehmanxanasında Murad Məhəmməd




## *Yaşayan Dədə Qorqud ödülü*

***Anarın 80 yaşı İstanbulda qeyd edilmişdir. Türk Ədəbiyyati Vəqfi tərəfindən düzənlənən tədbirdə Vəqfin başqanı Sərhəd Kabaklı Anara "Yaşayan Dədə Qorqud" ödülünü təqdim etmişdir. Tədbirdə çıxış edən yazıçı və Azərbaycan ədəbiyyatının tərcüməçisi İmdat Afşar 2012-ci ildə Anarın Türk Dünyasında ilin adamı seçildiyini xatırladaraq bunları söylədi:***

***Anarın ədəbi yaradıcılığında Dədə Qorqudun çox ayrı bir yeri vardır. Sovet toplumunu da, sistemini də hamımız bilirik, amma onun içində yaşayan bir insanın, 1975-ci ildə Dədə Qorqudla ilgili ədəbi faaliyyətlərdə bulunması, Dədə Qorqudla ilgili o illərdə ssenari yazaraq Azərbaycanda filmə çəkilməsi nail olmaq çox ciddi, qeydə dəyər bir durum olduğunu görürük. Çünki o dönəm Dədə Qorqud adı, təbliği yasaq idi. Amma Anar böyük cəsarət göstərərək bunları bacardı.***

dostla bir otaqda qaldıq. Bir gün Murad yeyəcək şeylərlə içəri girdi və dedi ki, indi gələcək. Kimin gəldiyini soruşanda Anar müəllim dedi. Bu Muradın adət etdiyi zarafatlarından biridir deyə inanmadım. Anar adı İttifaqa, hətta dünyaya yayılan yazıçıdır, onun qarşısında biz kimik deyə düşündüm. Xeyr, birazdan sonra Anar müəllim doğurdan da içəri girdi... uzun-uzun söhbət etdik. Onun yaradıcılığından, özbək ədəbiyyatından danışdıq. Onun anası - tanınmış Azərbaycan şairəsi Nigar Rəfibəylinin şeirlərindən bir parça oxudum:

İnanırsınız, Anar müəllim ağladı. Bilirsiniz, onun sümükdən olan eynəkləri var, onu alıb dəsmalla sildi. Onun vəziyyətini görəndə təəccübləndik. Davamlı danışan Murad susdu, hətta kədərləndi.. Anar müəllim belə kövrək və yumşaq qəlbli insandır. Erkin Əzəmin bir hekayəsi mənə Anarın "Sizsiz" əsərini xatırlatdı. Atası, görkəmli şair Rəsul Rza və anası şairə Nigar Rəfibəyliyə həsr olunmuş bu əsəri oxuyan hər bir oxucunun gözünə yaş gələr...

"Mən çox istərdim ki, nəşriyyatlar onun yazılarını seçmə əsərlər şəklində çap etsinlər". Yuxarıda qeyd etdik ki, Anarın bir neçə kitabı özbək dilində nəşr olunub. Əlinizdəki kitab Anarın özbəkcə növbəti toplusudur. Bunu böyük yazıçının özbək oxucularına növbəti hədiyyəsi kimi qiymətləndirə bilərsiniz.

**Məmətqul HƏZRƏTQULOV**
***Özbək yazıçı***

Türk xalqları dünya səviyyəsində tanınan şəxslər yetişdirdi. Çingiz Aytmatov (Qırğızstan), Muxtar Şaxanov (Qazaxıstan), Anar (Azərbaycan) və s. bu gün onlar ön sıralarda bulunan dünya yazarları arasındadırlar. Onlar bizləri dünyaya tanıtmağa çalışdılar və çalışırlar. Belə bir tanıtma uğrunda dünya ədəbiyyatının Olimp dağına çıxırlar.

**Yunus KANDİMOV**
***Krım-tatar yazıçısı***

## RUSİYA, UKRAYNA

Əziz Anar müəllim! Əziz dostlar! Mən o etirafdan başlamaq istəyirəm ki, Anar - Sovet İttifaqı adlanan ərazinin ən görkəmli yazıçılarından və mədəniyyət xadimlərindən biridir. Mənimçün necə xoşdur ki, indi - yetmişilliyinizdə də siz belə cavan, gözəl və cazibədar kişisiz. Mən Azərbaycanla çoxdan bağlıyam və Bakıya ilk dəfə gələrkən, artıq o zaman mənim şair kimi adım və taleyim vardı. - sizin adınız əfsanəvi idi. Mən elə hesab edirdim, Siz elə zirvəsiniz ki, ona çatmağı heç arzulamaq belə olmaz. İllər keçirdi, mən həmişə sizin əsərlərinizi oxuyurdum. Sizin sonuncu oxuduğum əsəriniz "Durujba narodov" jurnalında dərc olunmuş "Ağ qoç, Qara qoç"dur. Bu əsər məni sarsıtdı. Düşündüm ki, müasir Azərbaycan ədəbiyyatında bu gün rus yazıçılarının yazdıqları daha güclü, daha ciddi, daha dərin əsərlər var, qoy rus yazıçıları məndən inciməsin. Bu bir daha sübut edir ki, Siz düşünən, həyatı anlayan, Azərbaycanın və yalnız Azərbaycanın deyil problemlərini dərindən duyan bir insansınız.

Siz yazıçılar ailəsinin böyüyüsünüz, mənim də böyüyümsünüz.

Anar öz sənətdaşları arasında incə analitikdir. Onun yazısının sıx-sıx qrafik cizgilənməsi, demək olar ki, rəngli yaxmalara lüzum qoymasa da, bununla belə sözün çalarlanması necə də intensivdir. Düşüncənin təmkinli sərrastlığı utancaq bir bəsirət onun unikal usta olduğuna dəlalət edir... onun ağrısı üstüörtülüdür. Qəlbinin dərinlikərinə basılmış, gizlədilmiş, işıqlı zəka tərəfindən az qala tamam pərdələnmiş olsa da, bu səbəbdən daha güclü - gözlənilməz və dəhşətli sarsıntı törədir.

*Moskvada Anarın yubiley gecəsində rus şairəsi*
*Rima KAZAKOVANIN çıxışından*

1970-ci ildə "Ağ liman" povesti ruscaya tərcümədə ("Kruq") ümumittifaq oxucu auditoriyasında gözlənilmədən güclü əks-səda doğurdu. O vaxtdan bəri Anarı adı sovet ədəbiyyatı xəritəsində cizgilənmiş yeni istiqamətlə ilgilənir. İlk povestlərinin biri, "Dantenin yubileyi"ndə (gözəl, sərbəst yazılmış) Anar "alçaldılmış və təhqir olunmuş" "balaca adamın" - hər yetənin sıxışdırdığı biçarə artist fiqurunu təsvir edir. Anar həqiqəti sarsıdıcı keskinliklə çatdırır. Onun ləngərli nəsrində elə bir "not" var ki, təsvir-təhkiyə cizgiləri, fonu arasından birdən sanki elektrik cərəyanı kimi vurur, radiasiya saçılır. Artıq tərk edilmiş Təhminə gecənin tənhalığında musiqiyə qulaq asır, sonra isə Zaurun telefon nömrəsini yığıb səssiz qulaq asır. Lal vidalaşma.... onun yolu həyata doğrudur: barışmaq, evlənmək və sanballaşmaq. Təhminənin yolu - ölümədir.

Anardan mənə bir ağrı cərəyanı keçir. Obub ağrısı üstü örtülüdür, qəlbinin dərinliklərinə basılıb gizlədilmiş və işıqlı zəka tərəfindən az qala sözlərlə pərdələnmişdir, ona görə daha güclü, gözlənilməz və dəhşət saçır. Biz necə də fərqli, hədsiz dərəcədə fərqliyik: romantik və proqmatiklər, xəyalpərəst və qurucular, üsyançılar və külüng çalanlarıq.

Ağrıdır bizi doğmalaşdıran.

Gün kimi aydın "Gecə yarsı əhvalat"ı məhkəmə prosesi haqqında sənədli hesabat adlansa da, əslində cinayət işi əsasında ən gözəl yazılmış filosofema, varlığın dibindən qaynaqlanan dəhşətli dərk etmə cəhdidir.

1974-cü ildə belə yazır Anar. Ardıca da: "Bizdə belə dünyagörüşü üçün nə fəlsəfi, nə psixoloji, nə də ictimai zəmin var...."

Köhnə hekayədən belə müfəssəl statları onların necə köhnəldiyini göstərmək üçün deyil, əksinə bu gün onların 1974-cü ildəkindən fərqli səsləndiyi üçün gətirirəm. O zaman elə görünə bilərdi ki, Anar ortodoksal mülahizələri,



*Rəsul Rza, Lev Anniskiylə*

senzuranı sakitləşdirmək üçün deyirmiş. Bu gün çoxdankı mətni təkrar nəşr edərək, o bütün bunları qaralayıb çıxara bilərdi.

Həmin mülahizələri qaralamayıbsa - bu, belə qaralamaları prinsipcə əksiklik sayan yazıçının yalnız mərd hərəkətləri deyil, həm də onun uzaq görənliyinə dəlalət edir. Çünki mülahizələr bu gün heç də diqqəti yayındıra və sakitləşdirici fənd kimi deyil, gözlənilməz maraqla qarşılanır.

**Lev ANNİSKİ**

Bu gün yubileyini bayram etdiyimiz Anarın əsas yaradıcılıq ömrü də bu illərə düşdü. Bu günlərdə onun mənə bağışladığı kitablara və Kiyevdən gətirdiyim kitablarına baxdım və təəccüb qaldım ki, o, nə qədər çox iş görüb. Axı biz Kursları bitirəndə Xruşşov dövrü - yumşalma dövrü bitirdi və uzun illərin Brejnev qışı başlayırdı. Arzuladıqlarımızın - kim isə rejissor, kim isə şair olmaq istəyirdi - yerinə biz bu vəziyyətin bütün ağırlığını çiyinlərimizdə daşımağa məcbur olduq. Biz yalnız bu vaxtda yaşamağa məhkum idik, başqa vaxtda yox. Anar bunu bacardı, öz gözəl hekayələrini də yazdı, novellalarını, romanını, pyeslərini yaratdı, hələ esseləri... Onun ustalığına mat qalıram, təəccüblənirəm, düşünürəm: bu qədər işi görməyə necə vaxt tapır. Müəllimimiz saydığımız Felliniyə borcumu mən hələ də verə bilməmişəm, amma Anar bunu edib, Nazım Hikmət haqqında kitab yazıb, bu kitabı səbrsizliklə gözləyirəm.



*Ukrayna yazıçıları İvan Draç, Boris Oleynik, Vitali Korotiçlə*

Bu gün Kiyevdən gəldiyim dostumla Azərbaycan xalçası muzeyinə getmişdik. Bundan qabaq Anarın xalça haqqında mükəmməl essesini oxudum.

Mən bu adamı çox sevirəm, şadam ki, Sizin Anarınız var. Onu da bilirəm ki, Anar deyəndə bu sözün arxasında ağıl, mərdlik, namus, paklıq durur. Mənə elə gəlir ki, Anar bizim Taras Qriqoryeviç Şevçenkonun arzuladığı idealı təcəssüm etdirir.

*2008-ci il 15 martda Bakıda Anarın yubiley gecəsində*
*Ukraynanın xalq şairi İvan DRAÇIN çıxışından*

Mənim həyatda bəxtim gətirib. Sovet İttifaqı respublikalarından yaşıdlarımın əsərlərini bilir və sevirdim. Qazax Oljas Süleymenov və erməni Qrant Matevosyan, gürcü Otar Çiladze və Ukraynalı İvan Draç ancaq kitablarıyla deyil, simaları və davranışlarıyla da içimdə yer tutublar. Anarın da bu sırada layiqli yeri var. O, Azərbaycanın övladı, vətənin nüfuzlu səsi, onun ən dərəni ümidlərinin ifadəçisi, ölkədə və dünyada baş verənlərin diqqətli təhlilçisidir. Onun qəlbində sənətkarla mütəfəkkir bir-birinə tərəf gəlirlər.

Rus dilini kamil bilən Anar ikidilli yazıçı olmaq istəmir. Pyeslərini və nəsrini Azərbaycan dilində yazır, yalnız esseistikasında rus dilinə müraciət edir ki, bu da onun oxucu dairəsini xeyli genişləndirir.

**Yevgeni SİDOROV**
*Tənqidçi, Rusiya Federasiyasının*
*sabiq Mədəniyyət naziri*

Gülmək istəyirsinizmi? Şən adamla tanış olmaq istəyirsinizmi? Bakılı yazıçı Anarın "Molla Nəsrəddin - 66" hekayələrini oxuyun.

Mən Anarı heyif ki, az tanıyırdım və heç də yumoristik bir yazıçı kimi yox. Məsələn, gözəl lirik hekayə - "Mən, sən, o və telefon" - sonralar kinematoqraf tərəfindən amansızcasına korlanmış hekayə - ona mənsubdur. Bu səbəbdən də onun şən hekayələri mənim üçün xoşbəxt bir kəşfdir.

Anarın hekayələrində məzəli ciddiyyət yaxud ciddi məzəlilik var. Yazıçının bəhs etdiyi mətləblər doğrudan da çox vacib və ciddidir. Amma onlar haqqında o məzə tərzində danışır, çünki güüş və satiranın, yumor və zarafatın islah edəcəyinə əmindir. Anar - ağıllı, maraqlı müsahib, hekayəçidir. Hiss olunur ki, o çox bilir, çox şeyləri görüb, çox şeylər barədə düşünür. O, öz xalqını, öz torpağını, öz tarixini sevir. Zəhməti, zəhmət adamlarını sevir. Həyatımıza yumor hava kimi lazımdır. Mən çox şadam ki, bu zarafatcıl və istedadlı insanla tanış oldum.

**Nikita BOQOSLOVSKİ**
*Bəstəkar, SSRİ Xalq artisti*

### "Bizim şəhərdə bir ziyalı adam varmı?"

Mərkəzi qəzetlərin birinə məktub gəlmişdi. "Ziyalılığın nə demək olduğunu bilmək istərdim - oxucu soruşurdu - Mən vilayət şəhərində yaşasam da, tanışlarımın arasında ziyalı adam olduğuna əmin deyiləm.

"Necə də qəribədir - düşündüm, - tanışlarımın arasında həkimlər, pedaqoqlar, fiziklər, yuristlər var...

Ziyalılara gəldikdə isə... Məgər biri də tapılmadı?"

Və burada Anar yadıma düşdü, ilk dəfə bu adı beş il əvvəl eşitmişdim. Çardcou şəhərinin Musiqi Dram teatrında "Şəhərin yay günləri" (Leto və qorode") pyesi gedirdi. Mən pyeslə tanış deyildim.

Hələ 1977-ci ildə Anar cəmiyyətin yoluxduğu və heç də bəlası olmayan bir azarı ifşa edən fars - buffonada ruhunda "Zəncir" pyesi yazmışdı. "Zəncir" Azərbaycan Kukla teatrında və Moskvanın Miniatür teatrında tamaşaya qoyulmuşdu. "Şəhərin yay günləri" Bakıda, Leninakanda, Kazanda, Cardcouda göstərildi. Lakin Moskvada, Leninqradda ona qarşı laqeyd qaldılar. 1970-ci illərin dramaturgiyasının dildən zirək qəhrəmanları arasında abırlı-həyalı Qiyas Zeynallı itib batdı.

Mənim üçün Anar müasir Don Kixotdur, yox mən onu idealist saymıram. Anar həyatı gözəl bilir, bütün ölçüləriylə. Amma Don Kixot kimi hərəkət edir. Hər hansı şəraitdə yalnız düzünü deyir. Yumşaqlıqda, xeyirxahlıqda, kiminsə xətrinə dəyməməyə çalışaraq, amma yenə də həqiqəti deyir. Hətta hamı susanda da, qalanları "Hə" deyəndə "Yox" deyə bilir və əksinə...

Mən Vilayət şəhərində mərkəzə ünvanlanmış məktub göndərilən şəhərdə ziyalı olub-olmadığını bilmirəm. Onu bilirəm ki, Bakıda belə bir insan var.

**Anna ZEMNOVA**
*"Teatr" jurnalı, № 8, 1987*

...Dünən axşam vaxtı yazıçı və filosof Anarla, rəssam Toğrul Nərimanbəyovla süfrə başında keçirdik.

Müsahibələrim Azərbaycan elitasındandır. Nərimanbəyovun babası Bakının bələdiyyə başçısı olmuşdur: oradan qayıdarkən /Anarın valideynlərindən xəbər verən "Burada şair Rəsul Rza və Nigar Rəfibəyli yaşamışlar" yazılı xatirə lövhəsi vurulmuş binanın yanından keçdik. Gör necə kökü varmış Anarın, necə nəsilli-əsilli ziyalıdır. Elə onun adı da ad deyil, musiqidir! Sən demə, belə bir ad yoxmuş, onu Anarın valideynləri icad etmiş və ilk dəfə işlətmişdir. İndi isə çoxlarına bu adı qoyurlar.

Anarın "Xalçanın müdrikliyi" essesini oxumağa başlayaraq, bəri başdan duyuram ki, çox-çox gözəl və doğma yerlərdə rastlaşacam. Elədir ki, var. Anar xalçanın Azərbaycan torpağını başdan-başa əhatə edən proyeksiyasından başlayır, - təyyarədən baxanda bu torpaq özü də xalça kimi görünür. Sanki qədim nağıllardan gələn mifoloji "uçan" xalı anlamı əyanıləşir.

**Georgi QAÇEV**
*Filosof və kulturoloq*

"Dantenin yubileyi" filminin qəhrəmanı "kiçik" aktyor Feyzulla Kəbirlinski öz sənətinə yüksək mənəvi tellərlə bağlıdır. Anar situasiyanı gərginləşdirərək öz yapışıqlı və riqqətedici qəhrəmanını doğrudan da tamamilə istedadsız, bacarıqsız aktyor kimi göstərir və "istedadsız" aktyoru Həsənağa Turabov ekranda öz böyük istedadını bütün parlaqlığıyla təqdim edir. Kəəbirlinskinin sənətə məhəbbəti təmənnasız, fədakarcasınadır, amma qarşılıqsızdır, buna görə də hardasa faciəvidir. Lakin sənətə elə təmənnasız bağlı adamlar olmasaydı, sənətin özü də olmazdı. "Dantenin yubileyi" kimi öz işığı ilə bu adi həqiqəti bizə bir daha duydurur.

**V.BOJOVİÇ**
*Kinoşünas*

## ABŞ, AVROPA ÖLKƏLƏRİ

**Amerika Birləşmiş Ştatlarında Los Anjelesdə Ananın ikicildliyi nəşr olunub. Kitabın tərtibçisi, tərcümələrin redaktoru və Ön sözün müəllifi Betti Bleyrdir.**

**Birinci cildə "Dantenin yubileyi" povesti, "O gecənin səhəri", "Mən, sən, o və telefon", "Asqılıqda işləyən qadının söhbəti", "Gürcü familyası", " Keçən ilin son gecəsi", "Yaxşı padşahın nağılı" hekayələri daxil edilmişdir. Betti Bleyr yazır:**

*"Oxucu görəcək ki, bu hekayələrdə Anar adi adamlardan, cəmiyyətdə xüsusi yeri olmayan insanlardan yazır. Bu personajları əsərlərinin qəhrəmanı seçən yazıçı bizləri də özümüzə yeni gözlə baxmağa vadar edir. Obrazın mahiyyətini açmaq üçün müəllif qəhrəmanlarının ruhunun dərinliklərinə varır. Onun qəhrəmanları həyatın amansızlığıyla üzüzə durmurlar. Onlar həyatın yeknəsəkliyində ömür sürürlər. Bu cildə daxil olan hekayələr sovet dövründə yazılıb. SSRİ dağılandan sonra siyasi sistem kökündən dəyişsə də Ananın əsərləri indiki müasir həyatı da dəqiq əks etdirirlər. Sovet dönəmində qələmə alınmış "O gecənin səhəri" və "Yaxşı padşahın nağılı" hekayələrinin əsas hədəfi totalitarizmdir. Ümumiyyətlə, Ananın yazılarında soveti dövrünün damğası görünmür. Yazıçının fikrincə insanlar eynidir - kapitalist, sosialist ya hər hansı başqa sistemdə də. Anar hadisələri qatılaşdıraraq oxucunu gərgin vəziyyətdə saxlayır. Anar diaoloq ustasıdır. Sovet dövründə Azərbaycan yazıçısının geniş şöhrət qazanması çətindi, Moskva əsasən rus ya rusdilli milli yazıçıları önə çəkirdi. Halbuki Ananın əsərləri ən geniş şöhrətə layiqdirlər".*

**İkinci cildə "Otel otağı", "Əlaqə" povestləri və "Qırmızı limuzin" hekayəsi daxildir. İkinci cildin Ön sözündə Betti Bleyr yazır:**

*"Birinci cilddən fərqli olaraq, ikinci cilddə siyasi və tarixi keçid dövrünə aiddirlər. Bu əsərlər daha kədərli və əndişəlidi. Əsərlərə vaxtın qeyri-müəyyənliyindən doğan bir təlaş, narahatlıq hissi hakimdir. Əsas qəhrəmanın fikirləri ağrılı düşüncələr axınına çevrilir. "Otel otağı"povestində və "Qırmızı limuzin" hekayəsində SSRİ dağılandan sonra ağır gerçəklik təsvir olunur. Bu zaman kasiyi üçün xəyal qırıqlığı və Qarabağ faciəsiylə bağlı ağır düşüncələr səciyyəvidir. Anar bu hissləri çox təsirli şəkildə çatdıra bilir. "Otel otağı" şübhəsiz klassik əsərdir. Əsər göstərir ki, dərddən və kədərdən ölmək olar. Ananın yazıları bu gün də XXI əsrdə Xəzər sahillərindən çox uzaqlarda yaşayan insanlara dərin fikirlər aşılayır. Ananın əsərləri təsvir etdiyi zamanın çərçivələrini aşır.*

*Maraqlıdır ki, Almaniya Demokratik Respublikasında "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanının nəşri Amerikada, Oklaxoma Unversitetində çıxan "World Literature Today" ("Dünya ədəbiyyatı bu gün") dərgisində də əks səda doğurmuşdur. Nyu-York Universitetinin müəllimi Emst Rouzun resenziyasında deyilir: "1938-ci ildə dünyaya gələn nəslin nümayəndəsi olaraq, Anar Sovet Respublikası Azərbaycanın inqilabi qaynaqları haqqında bilavasitə şəxsi xatirələrinə malik deyil. Onun diqqəti Bakı şəhərində inkişaf edən yeni texniki ziyalılar və intellektuallar təbəqəsi mühitində məhəbbət problemləri üzərində cəmləşir".*

## AVROPA MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

### *Almaniya Demokratik Respublikası mətbuatı*

Mətnin bir yerində biz sanki Höte qəhrəmanı Qrethenin nəğməsini eşidirik. Bu mahnı Tulsdakı kral haqqındadır, məşuqəsi ölüm ayağında ona qızıl qədəh verir. Niyə içimizdə bu sətirlər səslənir? Axı "Faust"da vəsf olunmuş hökmdarla Ananın qəhrəmanlarını müxtəlif dünyalar ayırır: sonuncular bugünkü Bakıda yaşayır, sevir və ölürlər. Görünür, ədəbi motivlərin oxşarlığı bu emosional assosasiyalara və həyəcanlara səbəb olur. İndiyə qədər bizdə Ananın "Mən, sən, o və telefon" hekayəsini və "Əlaqə" povesti tanınırdı. Bu romanı isə gözlərimiz yaşardır, yazıçı bilərəkdən şüurlu surətdə "sentimentallığa" haqq qazandırır. Onun üçün duyğusallıq həyatda və ədəbiyyatda təsvir olunan ictimai hadisələrə qanuni əlavədir. Roman iri şəhərdə faciəvi sonluğu olan romans kimi səslənir. Bu kitabı oxumağı məsləhət bilirik.

**Mixael FARENHOLTS**
***"Azərbaycan yazıçısı Ananın duyğularla dolu nəsri"***
***"Lyaypsiqer folkaytunq qəzeti, Leypsiq***
***Avqust, 1983***

Qırx beş yaşlı Azərbaycan yazıçısı Anar yaxşı oxunaqlı romanında aldadılmış bir eşqin tarixçəsini danışır. Şərq koloriti, əxlaqi dürüstlük, təhr olunmamış gerçəklik bu kitabın əsas səciyyələridir. Anar əsərin əvvəlindən park səhnələr yaradır.

**Taqe ZOMMERFİL**
***"Qısa bal ayı". "Yunqe Valt" qəzeti.***
***Berlin, 12 aprel, 1983***

Azərbaycan yazıçısı Ananın romanı gözəl ədəbi əsəridir, ona görə ki, əvvəla o gerçəkliyi əks etdirir, ikincisi də oxucuda ideal haqqında fikirlər oyadır.

**"Gerçəklik və ideal". "Zonntaq" qəzeti.**
**Berlin, 3 aprel, 1983**

### *Almaniya Federatif Respublikası*

Ananın əsəri dəqiq nəql edilmiş faciəli sonluğu olan acı eşq tarixçəsidir. Ancaq "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanının məzmunu yalnız bu deyil. Bu roman 70 illik sosializmə baxmayaraq sovet cəmiyyətinin dərəni burjua mahiyyətini göstərir. Köhnəlmiş mənəvi dəyərlərə arxalanan cəmiyyətdə məhəbbət məğlubiyyətə düçar olur. Azərbaycandakı indiki həyəcanlandırıcı hadisələrə və aşkarlığa görə Ananın romanının almancaya yeni tərcüməsi xüsusi aktuallıq kəsb edir. Sovet müəllifinin böhran regionunda hadisələri təsvir edən ictimai tənqidi romanı ədibin ciddi uğurudur.

**Ştefan PROYS**
***"Şərqdə məhəbbət". "Qezlarin saytunq".***
***12 may, 1989***

Məhəbbət problematikasının arxasında Anar köhnəlmiş ənənələri və əxlaqi təsəvvürləri, herisliyi, varlanmaq ehtirasını tənqidi şəkildə əks etdirir. Cəmiyyətin qəbul etmədiyi bir eşq. Romanda bu sosialist cəmiyyətidir. O cəmiyyət ki, gizli yerlərdə ört-basdır edilən qadağaları, ənənələri - əslində xırda burjua əxlaqı və sosialist mifidir.

**"Sosialist mifi", "Velt" qəzeti,**
**Berlin, 14 iyun 1989**

### *Avstriya*

İki romanın mütaliəsi ilə mənim Azərbaycan barəsindəki təsəvvürüm xeyli dəyişdi. Bunlar Bakıda həvəslə görüşmək istədiyim müasir yazıçılardan Ananın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" və Elçinin "Ağ dəvə" romanlarıdır. Son vaxtlar Azərbaycan ədəbiyyatından yalnız bu əsərlər tam halda alman dilində çap olunub və hazırda onları alman dilli kitab bazarından əldə etmək mümkündür. Bu əsərlər məni elə ilk cümlədən heyran etdi və mən bu ölkə haqqında oxuduqlarımı sonradan öz gözlərimlə gördüm.

Öncə oxuduğum Ananın ilk dəfə 1979-cu ildə Bakıda çapdan çıxmış "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı oldu. Əsər sovet dövründə Azərbaycanın gündəlik həyatından çıxan problemlərdən, ənənəvi və əxlaqi şərq təsəvvürlərinin korrupsiya və möhtəkirliyə qurşanmış həyat tərzi ilə qarşılaşmasından bəhs edir.

Ölkənin bu gün demək olar ki, ən tanınmış yazıçısı, esseçisi və dramaturqu sayılan və beş yüz nəfərədək üzvü birləşdirən Azərbaycan Yazıçılar Birliyinin sədri olan Ananın iş otağı Bakının mərkəzində çoxmərtəbəli monumental bir binadadır. Nəhayət ki, Füzuli günlərindən sonra onunla görüşmək imkanı əldə edə bildim.

İlk əsərlərində siyasətlə öz arasında məsafə saxlamağa çalışan Anar yenidənqurma islahatlarının tərəfdarlarından olmuşdur. Onun ilk kitablarında Azərbaycanda sovet həyat tərzinin kəskin analizi var. O, bu gün də ictimai dəyişikliklərin diqqətli müşahidəçisidir. Və bu zaman o, kəskin mövqe mövzulardan heç də çəkinmir. Azərbaycan ədəbiyyatına ölkədə baş verən tarixi dəyişmə nəticəsində rus və Avropa ədəbiyyatı da əhəmiyyətli dərəcədə təfsir etmişdi. Lakin Ananın əsərlərində həmişəki kimi yenə də Şərq müdrikliyi motivləri özün biruzə verir. O tez-tez Şərqin böyük şairlərinin fikirlərinə müraciət edir. Onun kitabları bir çox dünya dillərinə tərcümə olunaraq Türkiyə, ABŞ, Yaponiya, Hindistan, Fransa, Almaniya və digər ölkələrdə nəşr olunmuşdur.

**Uli ROTFUS**
***"Azərbaycan-odlar yurdu"***

### *İsveçrə*

Bu nakam bir məhəbbət haqqında Azərbaycan romanıdır. Məşhur və hörmətli nasir, esseist və dramaturq Rzayev geniş ictimaiyyətə Anar adı ilə tanışdır. Onun "Beş mərtəbəli evin altıncı mərtəbəsi" adlı acı məhəbbət tarixçəsi alman dilinə tərcümə olan vaxt hadisələrin cərəyan etdiyi region dünya qəzetlərinin birinci səhifələrində yer aldı. Əvvəllər çoxlarının tanımadıqları yerlər orada baş verən milli münaqişələr nəticəsində dünya kütləvi informasiya vasitələrində hallandırılmağa başlandı. Bu romandan "oralarda niyə xalqlar bir-birini öldürür?" sualına cavab tapa bilməyəcəyik, amma bu əsər bizə çox şey haqqında məlumat verir. Aktual siyasi yeniliklərin şərhi üçün bu roman yaramır, amma oradakı dünyanın bizim təsəvvür etdiyimizdən qatqat zəngin, çoxcəhətli və təzadlı olduğunu dərk etmək işində bu əsər siyasi situasiya haqqında ən müfəssəl hesabat qədər əhəmiyyətlidir. Ananın əsəri hər halda məhəbbət romanıdır - nə az, nə çox.

Əbədi bir mövzuda - məhəbbət mövzusunda roman yazmaq isə hər yazıçının həyatında zirvə məqamıdır. Bu əsərdə həqiqi hisslərin, emosional gərginliyin təsvi çox uğurludur.

**"İslam ənənələri və kommunizm arasında"**
**"Noys Surixer saytunq" qəzeti, Surix. 7/8, 1990**

### *Fransa*

Gənc nəsil beynəlxalq səhnədə ən yaxşı Azərbaycan romanlarını yaradan Ananın əsərləriylə yetişirdi. Onun kitabları rus, bolqar, alman, ingilis, fransız dillərinə çevrilib. "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanı Bakının son illərdə ən müasir məhəbbət macərasını əks etdirir.

**"Anka"fransız jurnalı. Paris**

### *Polşa*

Xəbər verildiyi kimi, Xalq yazıçısı Ananın povest və hekayələri polyak dilində nəşr olunub. Bu yazıçının Polşada çıxan dördüncü kitabıdır. Həmin nəşrlə bağlı tanınmış polyak tənqidçisi Pyotr Praçnion nüfuzlu "Nove Ksaski" ("Yeni kitablar") jurnalının 2016- cı il 10-cu sayında yazır:

"Anar həm məşhur əsatir və rəmzlərdən istifadə edərək, həm də özü rəmzləri və onların təsvirini yaradaraq absurd və yuxu məntiqi üzrə inkişaf edən mifolooji əsərlər yazır. Maraqlıdır ki nasir Kafka kimi mifoloji paralellər yaratmaqla kifayətlənmir. Ananın mifoloji yaradıcılığı olduqca canlı və dinamikdir, keçmişin qalıqlarından azaddır. Yazıçı öz hərəkətli üslubuna malikdir. Azərbaycan yazıçısının qəhrəmanları ilahi və müqəddəs deyillər, xüsusi fərqli əlamətlərə malik deyillər. Əhliman (yəni Əhriman və Hörmüzd eyni şəxsdə) və "Qırmızı limuzin" hekayəsnin qəhrəmanı müəllifin O. adlandırdığı personaj cəmiyyətdə müəyyən ictimai və professional mövqe tutmalarına bax-

mayaraq oxucular tərəfindən simvol obraz kimi qəbul olunurlar. Anarın təhkiyə üslubu təsirlidir və ölülərlə dirilər dünyasının yerlərini daima dəyişdirilməsindən ibarətdir, bu isə yaxşının pisə, pisin isə yaxşıya çevrilməsinə imkan yaradır. Povestdə ölü canlanır, hekayədə canlı adam ölümə məhkum olunur. Buna görə də hər iki süjet ("Gözmuncuğu" və "Qırmızı limuzin" olduqca qəribə xüsusiyyətə malikdirlər. Hər iki mətndə Azərbaycan nasirinin təsəvvürünün mifoloji səciyyəsi gündəlik şəhər həyatının real elementləri vasitəsilə həyatın simvolik təsviriylə ifadə olunur. Anarın yaradıcılığı birmənalı şəkildə oxucunun aktiv iştirakını tələb edir və bununla da oxucu əsərin mənasını qavramaqda əsərin həmmüəllifinə çevrilir. Diri-diri basdırılan insanın hisslərini, düşüncələrini müəllifin şərhləri müşayiət edir. Bunlar Anarın yüksək səviyyədə bilik adamı və alim olmasını biruzə verir. Onun yaratdığı nəsrin XIX-XX əsr Avropa ədəbiyyatına bənzərlikləri var. Bu xüsusiyyət Anarı fərqləndirir, önə çıxarır, Kafka epiqonlarından xeyli uzaqda olduğundan nişan verir.

### *Macarıstan*

Bir dəfə səhər erkən, saat dördün yarısında Təhminə öz yuxusunu həmkarı Nemətə borc verir: bu yuxuda dəniz sahili var, ağ liman var və uzaqda qırmızı gəmilər görünür. Macar oxucularını gənc Azərbaycan yazıçısı Anarın əsərlərilə tanış etməyə dəyərdi. Yuxarıda xatırlatdığımız poetik yuxu yalnız Anarın lirik meylinə dəlalət etmir - axı onun atası da, anası da şairdir. Həm də Azərbaycan ədəbiyyatının qədim ənənələrinə bağlıdır. Azərbaycan yazıçısının bu maraqlı, dərin, təravətli povestilə bizi canlı tərcümələrilə M.Herinq və A.Vandor tanış etdilər. Anarın tərcümeyi-halı haqqında isə L.Zaxemskinin kitaba yazdığı son sözdən məlumat aldıq.

**"Madyar Namzat" qəzeti**

Anar çoxcəhətli istedaddır, həmişə öz aktual niyyətlərinin təcəssüm olunması üçün ən münasib sənət növünə müraciət edir. Ən çox onu kino və nəsr cəlb edir. "Ağ liman" povestinin üslubu da kinematoqrafa yaxın olan ifadə vasitələrilə səciyyələnir. Anar dialoq ustasıdır. Eskizvari qısa və eyni zamanda ekspressiv, gərginləşmiş təsvir ustasıdır... Əsərin qəhrəmanı Nemət Namazov dərin qəlb böhranı keçirir. Onu əzən öz güzəştləri və bununla bağlı boşluq, tənhalıq duyğularıdır. Ancaq Anar tənhalıqdan necə xilas olmalı sualına da cavab verir.

İnsan öz həyatını dəyərləndirmək və dəyişdirmək cəsarətinə malik olmalıdır. Anar inkisarı xəyala uğramış insanları daha çox təsvir eləsə də pessimist deyil. O öz qəhrəmanlarını dərin humanizm duyğularıyla yaradır. Əsərlərində çoxlu rəmzi elementlər olsa da, Anar formullar, düsturlar yaratmır, o canlı, dəyişən, inkişaf edən və formalaşan insanları meydana çıxarır. Onun təsvir metodu psixoloji cəhətdən dəqiqdir.

**"Könnüvvilas" ("Kitablar aləmində") nəşriyyatı**

Anarın povesti yuxuyla başlayır və baş qəhrəmanın yuxusuyla bitir. Povestin əsl adı "Çevrə"dir. Macarca "Ağ liman" adı bir qədər sentimental əhval-ruhiyyə oyadır. Yaxşı yazılmış məhəbbət səhnələrində də bir qədər sentimentallıq duyulur, amma kitabın əsas və daha əhəmiyyətli hissəsi sübut edir ki, müəllif ağlayıb-sızlayan sentimentallığa aludə deyil, onun emosionallığı özünəxas olan üzvü və mərdanə keyfiyyət daşıyır. Müəllif sujeti ciddi və sərt qurur, üslubu lətifdir, povest fransızsayağı asan oxunulur. Müəllifin incə psixoloji duyğusu ondan görünür ki, Nemətlə Təhminə bir-birinə aşiq olmurlar. Povestin ayrı-ayrı hissələri müstəqil novellalar kimi yazılıb. Onlardan biri - "Tənhalıq tilsimi" müasir sovet nəsrinin ən gözəl humanist imkanlarını ən kamil formada ifadə edir.

**Zoltan İSLAİ**
***"Kanuvek" ("Həyat və ədəbiyyat") qəzeti***

Hüseyn Abbaszadə və Laslo Zaxemskinin tərtib etdikləri "Uçan boşqab", Müasir Azərbaycan hekayələri, "Avropa" nəşriyyatı, Budapeşt antologiyası macar oxucularını müharibədən sonrakı Azərbaycan nəsriylə tanış edir. Kitabda müasir yazıçının 22 hekayəsi toplanmışdır. Antologiyanın ən yaxşı əsəri Anarın "Dantenin yubileyi" povestidir. Povestdə müəllif cavabı çox ağır və çətin olan bir məsələni qaldırır. 30 ildən artıq teatrda işləyən Feyzulla istedadsızdır, teatrın inkişafına mane olur. Onunla necə hərəkət etməli? Cavab, sanki aydındır: belə artıq yükdən xilas olmaq, yəni onu işdən çıxartmaq lazımdır. Amma burda humanizm məsələsi ortaya çıxır. Humanizm antihumanizmə çevrilir, bu ziddiyəti çözmək isə qeyri-mümkündür. Anarın povesti məhz bu barədədir və məhz buna görə o çox gözəldir. Povest diqqətimizi həqiqətin birmənalı olmadığına çəkir.

**Maqda BAN**
***"Odlar yurdundan hekayələr" məqaləsindən***

### *Rumıniya*

Zəngin həyat təcrübəsi, Azərbaycan cəmiyyətinin sovet sisteminin totalitarizmindən azadlığa, real demokratiya, çiçəklənməyə doğru mürəkkəb keçid yoluna dərindən bələd olması və vətəninin sosial və siyasi problemləri ilə yaxından tanış olması Anara həqiqi bədii panoram yaratmağa imkan verir. Və hər bir obyektiv oxucu bu mənzərə qarşısında laqeyd qala, onu həyəcansız seyr edə bilmir. "Ağ qoç, qara qoç" əsəri ilk səhifələrindən məni bu əsərdə ifadə olunan mülahizələrin səmimiyyətilə cəlb etdi. Anar arzupərəst sənətkardır. O, xüsusi ustalıqla istiqbalın yalnız yaxşılı-yamanlı keçmişin təməlində ucaldıla biləcəyi haqqında fikri təlqin edir. Və xalq öz keçmişini unudursa, onun gələcəyi də yoxdur. Anar humanistdir, o, insanların təbiətcə xeyirxah, saf və gözəl olduğuna inam bəsləyir. O, Oruellin "bütün insanlar bərabərdir, lakin bəziləri qalanlarından daha çox bərabərdir" fikrinə istehza ilə yanaşır.

Onun nəsri estetik baxımdan orijinal, məlumat zənginliyilə ibrətamizdir.

Əsərin sonunda acınacaqlı gerçəkliklə üzləşmiş qəhrəman yenə də bədbinliyə qapılmır. Onun pak qəlbində hələ də ümid yaşamaqdadır. Bu ümid kökləriIə Azərbaycan xalq nağıllarıyla bağlıdır. Və bu ümid qəhrəmanlara tənhalıq və qorxu hissinə üstün gəlməyə imkan verir. Öz orijinal yaradıcılığı, lakonik üslubu ilə, bəzən metafizik ünsürlərə də əl ataraq, Anar öz xalqının taleyindən bəhs edir və müasir Azərbaycan ədəbiyyatında layiqli yer tutur.

**Dimütru BALAN**

### *Yunanıstan*

Yunanstanda Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı "Təhminə" adıyla nəşr edilib. Kitabın Afinadakı təqdimatında ölkənin ən görkəmli ədəbiyyat, incəsənət və siyasət adamları iştirak edib. Azərbaycanın Yunanstandakı səfiri Əmirbəyov tədbiri açaraq qonaqları salamlayıb. Səfir Əmirbəyov daha sonra qəzetində bu hadisəylə bağlı müsahibə verib. Müsahibədə deyilir: Çox şadam ki, yunan oxucusunun tanış olacağı ilk Azərbaycan yazıçısı Anardır. Onun əsərləri dünyanın 20 ölkəsində nəşr olunub, 32 dilə çevrilib. İndi bu siyahıya Yunanstan da əlavə olunur. Yunanstanda "Təhminə" adıyla nəşr olunan roman yalnız Azərbaycanda deyil, Avropanın bir çox ölkələrində də məşhurdur. O artıq rus, alman, bolqar, çex, slovak, macar, eston, türk, özbək dillərinə çevrilmiş dəfələrlə Moskvada, Türkiyədə böyük tirajlarla çap olunmuşdur. Əziz oxucular, Azərbaycan ədəbi dünyasına xoş gəlmisiniz.

## ŞƏRQ ÖLKƏLƏRİ

### *İran*

Bu dastan o kişilər haqqındadır ki, iradələri ölkələrinin dağları kimi əzəmətli və möhkəmdir. Əziz oxuculara təqdim olunan bu tərcümə böyük müasir yazıçı Anar tərəfindən bəlli "Dədə Qorqud" dastanları əsasında işlənmişdir. Qəhrəmanlıq dastanının üslubu, dastanda anılan surətlər yazıçı tərəfindən özünəməxsus sənətkarlıqla yeni şəkildə canlandırılmışdır. O, Dədə Qorqudun 12 boyunu bir yerə toplayıb vahid məzmunlu əsər yaratmışdır.

(Anarın İbrahim Darabi tərəfindən fars dilinə tərcümə edilən və İranda nəşr olunan "Dədə Qorqud" povestinə yazılmış ön sözdən)

Sovet hakimiyyət illərində insanların gözləri tutulmuşdu, tarixin təhrif olunmasını, onları susmağa məcbur edəm amansız repressiyaları görmürdülər. Sovet dövrünün əsl mənzərəsini biz yalnız insanların gözlərini açmağa çalışan yazıçıların əsərlərində görə bilərik. Anarın bir çox əsərləri məhz bu məqsədə xidmət edir.

"O gecənin səhəri", "Dörd çahar", "Ürəyim ağrıyır", "Nisbət nəzəriyyəsi", "İztirabın vicdanı" belə hekayələr idi.

**Könül İBRAHİMQIZI**
***Ədəbiyyatşünas.***
***İranda çıxan "Yaşmaq" (2007, Yay nömrəsi) "Müasir nəsrdə insan və zaman problemi" məqaləsindən***

Bu kitabı oxuyarkən düşünürdüm ki, o, eposun indiyə qədər çıxan mətnlərindən və müxtəlif dillərə tərcümələrindən çox fərqlidir. Bu tamamilə başqa bir "Dədə Qorqud"dur, Anarın yaratdığı yeni "Dədə Qorqud"dur. Mahiyyət etibarilə Anar özü də Dədə Qorqud olmuşdur.

**Əli KƏRİMİ**

### *Misir*

Misirdə Anarın kitabı nəşr edilmişdir.

Kitaba "Keçən ilin son gecəsi", "Asqılıqla işləyən qadının söhbəti", "O gecənin səhəri", "Mən, sən,o və telefon", "Gürcü familyası", "Qoz qabığı", "Marallarım", "Yaxşı padşahın nağılı", "Mütləq görüşərik", "Qırmızı limuzin", "Vahimə" hekayələri və "Otel otağı" povesti daxil edilmişdir.

"Xoşbəxtlikdən Azərbaycanın ən görkəmli müsair yazıçılarından birinin bu gözəl hekayələr toplusunu tərcümə etmək mənə nəsib oldu. Böyük yaradıcı qüdrətə malik olan Anarın nəhəng istedadı ilə tanışlıq ərəb oxucusunun bu kitabın içindəkilərdən həzz alıb ona heyranlıq hissi keçirəcəyinə inanıram. Yazıçı bu sərt dünyada insandakı nəciblik, humanizm və gözəlliyi təqdir edir, ədalətə, xeyirxahlığa çağırır. O, eyni zamanda, davranışlarında eqoizmin hökm sürdüyü dünyanın həqiqi dəyərlərini dərk etmədən yaşayanlara qarşı çox sərt qərar verən bir hakimdir. Yazıçı öz əsərlərində vətəninin ən başlıca həyatı problemlərinə toxunur ki, onlardan ən mühüm ermənilərin Azərbaycan torpaqlarının böyük bir hissəsini işğal etmələridir. Mən bu yüksək istedada malik yazıçının başqa əsərlərinin də ərəb dilinə tərcümə edilməsini istərdim".

### *İraq*

Anar Rəsul - təxəllüsü Anar - Sovet Azərbaycanın ən görkəmli və parlaq gənc yazıçılardandır. O, çoxcəhətli və zəngin yaradıcılığa malik gənc yazıçılardandır. Ədəbi səmada Anarın ulduzu çox tez parlamışdır. Qısa müddət ərzində həqiqi istedadıyla özünə yol açan Anarın hekayələri və tənqidi məqalələri ən mötəbər sovet qəzet və jurnallarında rus dilində dərc edilməyə başlandı. Hekayəçilik və tənqid sahəsində müvəffəqiyətləri ilə bərabər o, həm də istedadlı ssenariçidir. Anarın öz səsi və ifadəliliyi ilə seçilən fərdi üslubu var.

**Cövdət Bilal İSMAYIL**
***"As-Suakafa "jurnalı.***
***Bağdad, May, 1973-cü il***

Anarın tərtib etdiyi "1500 ilin oğuz şeiri" antologiyasının gerçəkdən XX yüzilin - Əsrin kitabı adlanmağa haqqı var. Bu kitab - bütün türk dünyasına bəxş olunmuş şedevrdir. Yüz illərdən sonra da bu kitab Azərbaycanın və onun böyük yazarı Anarın adını qızıl hərflərlə Mədəniyyət tarixinə yazacaq.

**"Əsrin kitabı və Anar" resenziyasından**
**"Türkman eli" qəzeti (İraq), iyun, 2002**